# SƏNƏTKAR VƏ SÖZ: ZAMANIN GÜZGÜSÜNDƏ



**Şəddat CƏFƏROV**
***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Mən Əli Rza Xələflinin 60 illik yubileyi ərəfəsində onun yaradıcılığı haqqında yazılmış məqalələrin bir araya toplanmasının ideya müəllifiyəm. Çünki uzun illər dostluq etdiyim, sıx yaradıcılıq əlaqələri saxladığım və "Kredo" qəzetinin baş redaktoru və naşiri kimi onun gərgin ədəbi fəaliyyətini yaxından müşahidə edirdim. Dövrümüzün görkəmli ədəbi simalarının onun yaradıcılıq taleyi ilə bağlı yazılarını "Kredo" qəzetinin səhifələrində izləyirdim. Axı mən özüm də "Kredo" qəzeti redaksiya heyətinin üzvüyəm.

Doğrudur, qəzet nə qədər mətbuat faktı olsa da, dəyərli ədəbi-publisistik yazıların bir araya toplanmasını daha vacib hesab etdiyimdən *"Əli Rza Xələfli - 60"* adlı üç cildliyin birinci cildi haqqında artıq yazmışam və *"Kredo"* qəzetində çap olunub. Sonra həmin cildləri kitabxanamda bir də nəzərdən keçirdim. Düşündüm ki, hər cild haqqında ayrıca fikir və mülahizələrimi bildirmək yerinə düşər.

Əlbəttə, kitabın tərtibçi müəllifi görkəmli filosof-tənqidçi Sabir Bəşirovun dəyərli zəhmətini də burada ayrıca qeyd edirəm. Uzun illər ərzində "Kredo" qəzetinin səhifələrinə səpələnmiş yazıları bir araya gətirmək, həmin qeydlərin çap olunduğu nömrələri, tarixləri xronoloji ardıcıllıqla düzmək böyük zəhmət tələb edir. Amma bu ağır zəhmətin sonunda Xələflinin sənətkar obrazı müasirlərinin düşüncə mühitində kifayət qədər öz əksini tapır.

Kompüterdə müəyyən sistemə salınmış və bizim əlyazma adlandırdığımız nüsxəni vərəqlədim. Ayrı-ayrı məqalələri bir də nəzərdən keçirdim. Bu diqqətli müşahidə mənə imkan verdi ki, kitab üçün müvafiq annotasiya hazırlayım: *"Kitabda filologiya üzrə fəlsəfə doktoru, tənqidçi Sabir Bəşirovun tərtibi və redaktəsi ilə tanınmış şair-publisist Əli Rza Xələflinin həyat və yaradıcılığından nəhs edən ədəbi-tənqidi məqalələr və publisistik düşüncələr toplanmışdır. Təqdim olunan yazılarda Ə.-Xələflinin yazıçı-nasir, şair, publisist, esseist, ədəbiyyatşünas - tənqidçi, nəhayət naşir və redaktor obrazı aydın görünür. Qeydlərdə sənət yanğısı, yurd sevgisi sənətkarın yaradıcılığını xarakterizə edən əsas keyfiyyət kimi araşdırılır".* Bu qeydlərdə Xələflinin yaradıcılıq əhatəsi onun müxtəlif janrlarda ustadlıqla qələm işlətməsini göstərən faktlar çox şey deyir.

Kitab hazırlanandan sonra təklif etdim ki, Xələfli öz imzası ilə bu kitaba bir epiqraf da yazsın. Mən uzun illərdən bəri yaxından müşahidə etmişəm ki, dostum kiçik həcmli esselərdə də özünü məharətlə ifadə edir. Çox vaxt aparmadı. Elə Xələflinin təklifi ilə onun bir neçə kitabını vərəqlədim və kiçik esselərdən birini epiqraf kimi seçdim: *"...Fikirlərin, düşüncələrin savaşı, ağın-qaranın döyüşü, xeyein və şərin qarşılaşması... kim bu tərəfləri insandan kənarda axtarırsa, səhv eləyir, kim bu tərəfləri özündə axtarırsa, o, doğruya daha yaxındır. Əsas odur ki, ağı, xeyiri, işığı hər kəs özünə daha çox doğma bilsin. Bəlkə, belə demək daha doğru olardı; döyüşən tərəflərdən ağın, xeyirin, işığın qələbəsi naminə gücü çatdığını əsirgəməsin... Qaranın, şərin və qaranlığın gücü onsuz da var. Ruhu ağlığın, mənəvi ölçüləri xeyirin, əməlləri işığın tərəfində olan insan cəmiyyətin min illər boyu arzuladığı idealdır. ... İnsanın doğulduğu yerə bənzəri varmı? Bəlkə də bu sualın cavabı - birmənalı cavabı yoxdur. Amma yurdun taleyinin - istər şad-xürrəm gününün, güzəranının, istərsə də ağrısının, acısının insana dəxli var. İnsan lakmus - suçəkən kimi yurdun təbiətini özünə çəkir, ağrıları ilə birlikdə..."*. Göründüyü kimi, Xələfli bu kiçik essedə insan və həyat, insan və cəmiyyət problemlərinə diqqət yetirir. Ən başlıcası, bu qeydlərdə o, insanı daim hərəkətdə, mübarizədə olan varlıq kimi təkcə təqdim etmir, həm də tərənnüm edir. Onun düşüncəsində insan öz yerindən, yurdundan təcrid olunmur.

Həqiqətən də insanın mənəvi mühitinin formalaşmasında, doğulub-böyüdüyü yerlə, yurdla bağlı yaddaşın xüsusi rolu var. Xələflinin özünün təbirincə desək, hər bir insan lakmus - suçəkən kimi təbiətin gözəlliklərini öz varlığına çəkir.

Məlum olduğu kimi, Qarabağ az qala bir qərinəlik zaman ərzində erməni faşistlərinin işğalı altında qaldı. Xələflinin də qarabağlı olduğunu, Cəbrayılda doğulub-böyüdüyünü nəzərə alsaq, yerin, yurdun faciəsini öz təbiətinin faciəsi kimi yaşadığını da qəbul etməliyik.

Bu mənada Xələfli haqqında yazan müəlliflərin, demək olar ki, hamısı onu yurd həsrətlisi kimi xarakterizə edir. Çünki Xələflinin istər çox çevik və fəal publisistikasında, istərsə də, nəsrində və əlbəttə, alovlu poeziyasında yurd yanğısını açıq-aşkar görməkdən başqa, həm də varlığımıza çəkib bu hisslərlə yaşamalı oluruq.

Zənnimcə, kitabın əsas məziyyətlərini, ədəbi yöndən mahiyyətini ən yaxşı təqdim edən elə tərtibçinin qeydləridir. Məlum olduğu kimi, tərtibçi filosof-tənqidçi Sabir Bəşirovdur. Onun "Ön söz" kimi nəzərdə tutulmuş *"Sözün min bir rəngi"* adlı qeydləri kitabın mahiyyətini tam ehtiva edir. O, sözünün əvvəlindəcə yazır: *"Bu gün ədəbiyyat aləmində kifayət qədər tanınan Əli Rza Xələfli haqqında yazmış, fikir söyləmiş ziyalıların, söz adamlarının, görkəmli sənət adamlarının yazıya alınmış düşüncələrini bir yerə toplamaq, təkcə onun özünə, yaradıcılığına verilən qiymət deyil, həm də ədəbiyyatımıza xidmətdir. Bu yanaşma onu göstərir ki, müqəddəs yazının pozulmazlığı qanunu əbədidir".* Sabir Bəşirov canlı yazı sahibi idi. O, bütün yazılarında fəlsəfi ümumiləşdirmələr aparır. Hətta bir çox hallarda qeydlərini aforizmsayağı lakonik, sərrast tezislərlə bəzəməyi də bacarırdı. Hər hansı bir müəllif mövzunu seçərkən, onu işləyərkən yaradıcılıq yanğısı ilə yanaşırsa, zəhmətdən çəkinmirsə, son nəticədə məqsədinə çatmış olur.

Kitabın əvvəlində Sabir Bəşirovun *"Ön söz"* əvəzi yazdığı qeydlər həcmcə o qədər də böyük deyil. Ancaq kiçik, yığcam mətnin içərisində, demək olar ki, hər bir müəllifə ayrıca münasibət bildirir. Onların Xələfli yaradıcılığına münasibətini ədəbi meyarlarla qiymətləndirməyə çalışır.

Sabir Bəşirovun qeydlərini oxuduqca ayrı-ayrı müəlliflər, ədəbi mühitimizin aparıcı simaları gözlərimizin önündən bir-bir keçir: *"Bir vaxtlar türk öz tarixini qranit qayaların üzərində yazırdı. Bəlkə də, bu zərurətin özü də təkcə yazı imkanlarının məhdudluğu ilə bağlı deyildi. Bu zərurət türkün düşüncəsində yazının pozulmazlıq qanununu qorumaq istəyindən doğulmuşdu. "Əli Rza Xələfli - 60: Sənət yanğısı - yurd sevgisi" kitabı da bəlkə də, yaddaşlarda yaşayan həmin ənənənin yaşarılığı zərurətindən yarandı. Bu gün ədəbiyyatımızda, mətbuatımızda fədakarlıqla çalışan Ə.Xələfli haqqında yazanların istər yaş, istərsə də yanaşma sarıdan müxtəlifliyi, rəngarəngliyi diqqəti çəkir. Azərbaycan ədəbiyyatşünaslığının, ədəbi tənqidimizin görkəmli nümayəndələri - Ənvər Nəzərli, Əsəd Rza Yaqubi, Qəzənfər Paşayev, Qəzənfər Kazımov, Abbas Hacıyev, Nizaməddin Şəmsizadə, Asif Rüstəmli... kimi müdriklər onu böyük ədəbiyyat cəfakeşi, istedadlı söz adamı kimi xarakterizə edir. Əsərlərinin, düşüncələrinin alt qatında yatan mənaların hər biri özünəxas müxtəlif tərəflərdən yanaşma ilə açmağa çalışırlar. Əli Rza Xələflini Xanəli Kərimli şair-publisist, Qurban Bayramov şair, Təyyar Salamoğlu nasir-şair, İsmayıl Kazımov dil bilicisi, Asif Rüstəmli tədqiqatçı-şair, Elçin Mehrəliyev şair-publisist, Mahmud Allahmanlı onun poeziyasında tarixin poetik ifadəsini açıqlayır, Əkbər Əlioğlu S.Vurğun ənənələrinin davamçısı şair kimi görür. Xeybər Göyyallı, İlham Məmmədli, Tamxil Ziyaddinoğlu dost, vətənpərvər, sözdən yorulmayan söz sahibi kimi xarakterizə edir. Gənc tədqiqatçılar Cahid İsmayıloğlu onun fəlsəfi ümumiləşdirmələrinə dəyər verir. Vəfa Nizami qızı vətənpərvər ruhundan söz açır. Süleyman Alıyev, İsaxan İsaxanlı, Hafiz Rüstəm, Qəşəm İlqar, Hikmət Məlikzadə və başqa onlarca müəlliflərin qeydləri Xələfli sözünün min bir rəngə çalan mahiyyətinə varır, fikir və mülahizələrini oxucularla bölüşürlər".* Ədəbi düşüncənin çevikliyi, əhatəliliyi mövzunu qavrama prosesindən qaynaqlanır. Müəllif çəkdiyi adların müvafiq sırasını da yaradır. Sanki kimin nə demək istədiyini elə bəri başdan oxucuya çatdırır. Xələfli çoxplanlı, yaradıcılıqda müxtəlif janrlara istinad edən sənətkardır. Onun haqqında yazan müəlliflər də yaradıcılığını əhatə edən janrlara fərdi yanaşır.

Bu tipli kitabları hazırlamaq kimsəyə asan gəlməsin. Çünki məqalələrin yazılması və nəşr tarixləri bir-birindən xeyli fərqlənir. Kitabda 61 məqalə verilib. Bu həm də, demək olar ki, müəlliflərin sayını bildirir. Təkcə bu rəqəmin özü göstərir ki, müəyyən dövr ərzində Xələflinin yaradıcılığı nə qədər diqqətdə olub. Yazılar janr baxımından da fərqlidir. Bəzi müəlliflər öz münasibətlərini poetik şəkildə çatdırır. Çünki müəlliflər arasında xeyli şairlər var. Şairlər isə, əgər belə demək mümkünsə, öz həmkarlarını daha yaxşı başa düşür, daha duyğulu münasibət bildirməyə çalışırlar.

Əlbəttə, essevari üslubda yazılan qeydlər də az deyil. Bu da o deməkdir ki, Xələfli yaradıcılığı, onun ədəbi mühitdəki fəallığı müasirlərinə ciddi təsir göstərib. Ayrı-ayrı esselərdə müəllifin yaradıcılığına obrazlı yanaşmalar da bu səbəbdən üzə çıxmış olur. Sabir Bəşirovun qeydlərinin sonu da Xələfli yaradıcılığına onun inamını ifadə edir: *"İmkan daxilində yazıları tarixi-xronoloji ardıcıllıqla vermək istəsək də arxiv dağınıqlığı müəyyən çətinliklərə səbəb oldu. Hamımıza məlumdur ki, Xələflinin tərtibçi-redaktor, jurnalist fəaliyyəti də danılmazdır. Bu sahədə də onun böyük işləri var. Müasirləri onun fəaliyyətinin bu yönümü haqqında da ürəkdolusu söz deyiblər. Bu istiqamətdəki yazıları üçüncü cild üçün nəzərdə tutduq. Əlbəttə, üç cilddə nəzərdə tutulan kitab Ə.Xələflinin həyatı və yaradıcılığı haqqında yazılanları, deyilənləri tam əhatə etmir. Dövrümüzün görkəmli şairi, publisisti, nasiri, böyük söz adamı Ə.Xələflinin çox zəngin yaradıcılığının gələcəkdə ardıcıl və sistemli şəkildə tədqiq olunacağına inanırıq".* Göründüyü kimi müəllif qeyd edir ki, Xələflinin yaradıcılığı gələcəkdə geniş tədqiq olunacaq. Amma bu kitabın özü də göstərir ki, Xələflinin yaradıcılığı elə indidən kfiayət qədər tədqiq olunur, öyrənilir. Kitabı vərəqlədikcə çox maraqlı yazılarla qarşılaşıram. Kamal Hacıyevin *"Niyə məhz meyar?"*ı, Cahid İsmayıloğlunun *"Söz içində söz"*ü, Hikmət Məlikzadənin *"Vaqifliyin poeziyası"*... kimi mətnləri oxuduqca sözün sehrinə düşməmək mümkün deyil.

Ancaq bir maraqlı mətndən kiçik bir parçanı diqqətə çəkməyə biləmrəm. *"Dağ çiçəyi"* imzası ilə həcmcə o qədər də böyük olmayan bir yazı diqqətimi çəkdi. Müəllifin adı göstərilməsə də, onun Əli Rza Xələfli yaradıcılığına və şəxsiyyətinə qibtəsi açıq-aşkar duyulur. O, sanki qəlbinin dərinliklərindən gələn hissləri ilə Xələflinin söz yanğısına öz qəlbinin atəşli münasibətini bildirməkdən çəkinmir. Mətndə oxuyuruq: *"8 ildən çoxdur ki, səni tanıyıram. Səninlə tanışlıq mənə çox şey öyrətdi. Özümə inamım artdı, ədəbiyyatı, ən başlıcası, sözü daha çox sevdim, sözün qiymətini anladım. Dünyanın ən gözəl, ən səmimi, ən ali, təmiz, sevgi dolu hisslərini mənə yaşatdın. İnsanın həyatında onu yaşadan sehirli bir güc mənbəyi olmalıdır. Məncə, bu güc mənbəyi onun sevgi aləmi ilə bağlı olmalıdır. Yoxsa insan digər canlılardan fərqlənməz. Axı onlar da artırlar, çoxalırlar, bala böyüdürlər. Axı biz insanıq, bizim hisslərimiz var. Sənin sözlərinlə desək, insanlar bədbəxtliyi fiziki, cismani şikəstlikdə, qəzada, ölümlərdə, maddi məhrumiyyətlərdə, kasıblıqda görürlər. Bir zamanlar mən də belə düşünürdüm. Amma sənin dünyana daxil olandan sonra başa düşdüm ki, heç də belə deyilmiş. Kimin sevən ürəyi yoxdursa və sevməyi bacarmırsa bədbəxt odur".* Nə qədər təsirli bir mətndir.

Mən 60 ildən çoxdur ki, mətbəə işində çalışıram. Onun çox böyük hissəsini naşirliyə sərf etmişəm. Nəşr etdiyim kitabların sayı-hesabı bilinməz. Ancaq *"Əli Rza Xələfli - 60"* seriyasından buraxdığım kitabları poliqrafiya sənətinin incilərindən hesab edirəm. Bu kitablar ədəbi mühitimizdə, ədəbi düşüncədə həyatını yaradıcılığa həsr etmiş sənətkarın yaradıcılıq yoluna ən dəyərli abidələrdən sayılmalıdır.

***10.05.2022***